# DANIŞDIR"



-Mən "Ağrı"da insanları bu güzgüdə faciənin kökündə dayanan səbəbə baxmağa dəvət etmişəm. Bu yerdə tarixi mənbələrə və publisitikaya müraciət qaçılmazdır.

**-Romanda həm də Əfqanıstan müharibəsinə geniş yer verilib. Bütün çılpaqlığıyla. Azərbaycan oxucusu həmin dövr haqqında az oxudu. Sanki zaman elə keçib getdi ki, Əfqanıstan hadisələri haqqında heç nə yazmağa macal olmadı, tezliklə Qarabağ münaqişəsi başladı. Sovet zamanı gizlədilən bir çox mətləblər ədəbiyyata gətirilmədi, gənclik o zamanın Əfqanıstan savaşları haqqında demək olar heç nə bilmir. Üstəlik, sonra Qarabağda döyüşən Əfqanıstan veteranları sovet dövründə üz-üzə qaldıqları əfqan döyüşçüləri ilə çiyin-çiyinəydilər...**

-Eləydi, Qarabağ savaşında əfqan döyüşçülər həm təcrübəliydilər, həm də qəhrəmancasına, fədakarlıqla döyüşürdülər. Onlar döyüşün, müharibənin hər üzünü görmüşdülər. Müharibə mütəxəssisiydilər. Əfqan döyüşçülər isə bizdə az döyüşdülər, hansısa bir qələbəyə imza atdıqlarından da xəbərsizəm.

**-Hə, onlar tezliklə çıxıb getdilər.**

-Biz o müharibəyə könüllü getməmişdik, Əfqanıstana yəni, bizi zorla aparırdılar. Onların Qarabağ savaşına nə yolla gəlməsi isə mübahisəlidir.




**-Hər halda roman Əfqanıstan savaşındakı könülsüz iştirakımızı yaddaşa köçürüb. Böyük ordunun tərkibində ümumi əmr. Bu qaydadır və heç bir güzəşt tanımır.**

- Bizdə əfqan müharibəsi haqda yazılıb, amma belə yazılar çox azdır. "Ağrı"dakı yazıçının da Qarabağa yolu əfqan müharibəsindən başlayır. Bu çox qəddar, amansız müharibə olub. Sovet vaxtı yazmayıblar. Heç indi də hər şeyi yazmaq olmur. Bütün müharibələrdə vicdanlar susur, amma əfqan və Qarabağ müharibəsində insanlıq da susub. İnsanlar vəhşilikləri ilə vəhşi heyvanları da geridə qoyublar. Çox vaxt əsir düşən müsəlmanları əfqanlar öldürmürdülər, bu ruslarda qıcıq yaradırdı. Ona görə də əsirlərin çoxu daha geri qayıtmır, qərbə üz tuturdu. Qayıdanların da çoxunu sovet zabitləri adını xəyanət, satqınlıq qoyaraq güllələyirdilər…

**-Aslan müəllim, əsərdəki əsas xətt sözsüz ki, Yazıçıdır. Bu ümumiləşdirilmiş obrazdır, haqlıyammı?**

-Yox. Bu romanda yox. O, bütün həmkarlarını təmsil eləmir. Ayrıca fərddir, ayrıca, öz taleyi olan və taleyi ilə də, yazıları ilə də həmkarlarından fərqlənən yazıçıdır. Bədii ədəbiyyatda real obrazlar olmur, obrazları yazıçı yaradır. Romandakı yazıçı da mənim qələmimin məhsuludur. Amma sırf real olmadığı qədər, sırf xəyali obraz da deyil.

**-Mən yazıçıların ümumiləşdirilmiş obrazını nəzərdə tutmuram. Ümumiyyətlə ümumiləşdirilmiş obraz. Yazıçı həm keçmiş və indiki döyüşçüdür, həm kəndinə qayıdıb gizlənən, təbiətə sığınan adamdır, həm əsərləri çap edilməyən gənc yazardır, həm dostdur, həm bir az avaradır. Bir az təəssübkeşdir, bir az kövrəkdir, bir az sərtdir. Başına gələn mürəkkəb və sadə hadisələr, şəxsi həyatı, dostları, düşmənləri, mübarizəsi, döyüşü, qayıdışı... Lakin əsərin əvvəlində hardan başlayıbsa sonda oraya qayıdır. Yol çox uzun və ağır olub. Dairə tamamlanıbmı? İndi onun əsərini çap edəcəklərmiş kimi görünür...**

-Dairə tamamlanıb. Onun dairəsi. İndi onu çap edəcəklər, necə ki, eləyirlər.

**-Bu dairənin içində qalan onun faciəsidir, yoxsa qələbəsi? Necə ki, yazmısınız:**

**"-Bircə nəfər də sağ qalmadı?**

**-Qalmadı..."**

-O da bir Azərbaycan yazıçısıdır. Biz qələbə qazanmırıq, uduzuruq. O da məğlub olur.

**-Yəni, bu ümumilikdə kimin məğlubiyyətidir? Hamı savaşda məğlub olub, heç kim ordan sağ çıxmayıb, amma bir yandan təkcə o sağdır. Hərçənd ki, sonunda əsərini çap üçün qəbul edirlər, hərçənd ki, o sağdır, lakin uduzub. Bəlkə Yazıçı bütün bunları yaza bilmək üçün "sağ buraxılıb"?**

-Hə, bircə nəfər də sağ qalmır. Həm bu romandakı reallığı əks elətdirir, həm də təkcə cismani ölüm nəzərdə tutulmur. Sənin yurdunu-yuvanı əlindən alır, bütün doğmalarını öldürürlərsə, sən özün də ölürsən. Ümumilikdə bu bizim məğlubiyyətimizdir. Bir insan kimi də, bir yazıçı kimi də. Təkcə o yox, o savaşda hamımız, sənətindən, peşəsindən asılı olmayaraq, hər kəs məğlub oldu. Əsərinin çapı isə bir yazıçının qələbəsi deyil. "Ağrı" çap oldu, bir kimsənin tükünü tərpətmədi, bu yazıçının məğlubiyyəti deyilmi?

**-Romanın məndə yaratdığı ümumi təəssürat budur - Tarix heç zaman haqlı deyil, onun səhifələrini tutumlu edən savaşlar ancaq siyasi oyunların işinə yarayır, savaşanlar sanki öz şanlı tarixini yaratmaq üçün döyüşürlər, lakin bəşəriyyətə tarix lazım deyil, bəşəriyyətə başqa şey - barış gərəkdir...**

**Yazıçının övladının da adı Barışdır. Və o da qurbandır. Bu** bir işarədirmi? **Yəni, bəşəriyyət ona gərəkli olanı hələ də qəbul edə bilmir.**

-Tarixin haqsızı, haqlısı olmur, tarix olur. İnsanlar da heç də həmişə öz şanlı tarixlərini yaratmaq üçün döyüşməyiblər. Baxın, Babək. Döyüşməyə məcburdu, onun üstünə gəlirdilər. Torpağını işğal eləməyə, inanclarını əlindən almağa gəlirdilər. Ya bizlər. Evlərimizdə oturmuşduq, bir də onda eşitdik Qarabağı bizdən almaq istəyirlər. Məcburduq döyüşməyə. Yəni burda tarixin günahı yoxdur. Əlbəttə, bəşəriyyət barış içində yaşamalıdır. Yaşasa da şər olmaz. Şər də varsa, barış olmaz. Barışın ölümü, Barışların ölümü nəyəsə işarə deyil,. faktdır. Müharibənin acı gerçəkliyidir. Dünyanı bəşəriyyət idarə eləmir ki, ona gərəkli olanı da qəbul eləyə. Bəşəriyyətə qəbul elətdirirlər, zorla, diqtəylə. Nəyi istəsələr, necə istəsələr!

**-Aslan müəllim, məsələyə qlobal yanaşsaq, tək deyilik, dünyada savaşa zorlanan yüzlərlə toplum var. Hətta öz içimizdə savaşdayıq, bunun bir az geniş nümunəsi vətəndaş müharibələri, üsyanlar var. Bəzən hətta kiçik, qonşunun qonşuyla torpaq davaları belə mübahisə, daha ciddi fəsadlar, cinayətlər doğurur. İnsanlar sizin təsvir etdiyiniz o kiçik kənddə olduğu kimi, daha dinc, gözəl yaşaya bilməzdilərmi? Yəni mən "Ağrı" romanını sadəcə Qarabağ savaşı haqda roman hesab etmirəm, bu, sanki bütün döyüşçülərə səslənməkdir, ən azı qarşı tərəfə səslənməkdir.**

-Bu, bütün dünyaya, bütün insanlara çağırışdır! Yazıçı müharibə dəhşətlərini bütün çılpaqlığı ilə ona görə yazır ki, insanlar müharibəni tanısınlar, nəfəsini duysunlar, bəşəriyyətə nələr gətirə biləcəyini başa düşsünlər.

**-Yəni, siz də bunu qəbul edirsiniz ki, "Ağrı"nın mesajı heç bir ayrı-seçkilik edilmədən hamıyadır...**

-"Ağrı"nın mesajı ilk növbədə bu ağrını illərdir yaşayan, qəlbində gəzdirən xalqımadır. Biz haralardan keçib gəldik, haralara gedirik, gələcəkdə bizi nə gözləyir. Mesaj budur.

**-Yuxarıda "Ağrı"nın tərcüməsiylə bağlı məsələyə toxunmuşduq. Məhz bu məqamda bu sual doğdu - eləsə başqa millətin, başqa toplumun insanının bu romandan necə bir mesajı alacağını gözləyirsiniz?**

-Başqa millətlərin, toplumların isə yalnız və yalnız həqiqətin harda olmasını bilmələrini istəyirəm.

**- Sizcə, bizim həqiqətimiz başqalarına gərəkdir? Axı, bu bizim həqiqətimizdir...**

-Hədiyyə xanım, bu kimi yazılar münaqişənin ədalətli həlli üçün zəmin hazırlayır. Ermənilər belə zəmini Qarabağ savaşı ərəfəsində hazırladılar. Sumqayıt, Bakı hadisələrini dünyaya təqdim eləyib vəhşi azərbaycanlı obrazı yaratmaqla. Dünya bizim həqiqəti bilməlidir. Biz bundan heç nə itirmirik. Amma nə yazıqlar olsun ki, biz bu həqiqəti dünyaya çatdıra bilməmişik, bu gün də çatdıra bilmirik. Söz isə böyük qüvvədir! Problem odur. Ədəbiyyatımızın təbliği məsəsləsində biz qonşularımıza çox uduzuruq. Amma qonşularımızdansa bu bizim üçün daha vacibdir.

**- Lakin etiraf etməliyik ki, görülən işlər var və hətta bu işlərdən sonra da, hətta ən yaxın qonşularımız da bu faciələrə laqeyddir. Sıravi insanların heç məlumatı da yoxdur Qarabağda nələr olur. Bir baxımdan burada iş təkcə yazıçının məsələyə öz bucağından baxışıyla və məsələni birtərəfli ədəbi mətnə çevirməsiylə bitmir... Üstəlik dünya mətnlərə vurulan təbliğat yarlığından qaçır, bəlkə də sizin dediyiniz kimi, həqiqəti daha bəşəri səhnədə təqdim etməliyik ki, bizə də onun həllindən pay düşsün...**

- Yazıçıların bu işləri görmək imkanları xaricindədir. Mən "Ağrı"nı çətinliklə çap elətdirmişəm, onun tərcüməsi, təbliği üçün pulu hardan tapa bilərəm? Əgər bu mövzudan bəhs edən yazılar, kitablar xarici dillərə tərcümə olunmursa, hardan da məlumatlı olacaqlar?

**-Siz həqiqətənmi elə düşünürsünüz ki, bu roman ancaq Qarabağ həqiqətlərini dünyaya çatdırmaq istiqamətində bir addımdır, vəssalam? Mən indi sizin, müəllifin deyil, onun yazdığı romanın, "Ağrı"nın tərəfindəyəm. O daha düzünü göstərir, "Ağrı" Qarabağ münaqişəsi haqqında adi bir təbliğat mətni deyil. Bütün münaqişələrə bir baxışdır. Bütün münaqişələrə və onlardan əziyyət çəkən Sərxoşlara, Keşişlərə, Mollalara, Yazıçılara, Ülkərlərə, Sonyalara və hətta erməni Suzannalara... Yəni, bu cür ağrıların bizimkisi, sizinkisi olmaz. O hər iki tərəf üçün, hər tərəf üçün ağrıdır, gec-tez hər tərəf onu hiss edəcək və bəlkə də hiss etməkdədir.**

-Xoş sözləriniz üçün təşəkkür edirəm. Yəni romanı bunca qiymətləndirdiyinizə görə. Amma mənim üçün dünyada Qarabağ ağrısından, Qərbi Azərbaycan ağrısından daha ağrılı, daha önəmli heç nə yoxdur. Əgər bu romanla dünyaya Qarabağ həqiqətlərini çatdıra biləcəyəmsə, demək, roman alınıb. Mən belə düşünürəm. Bir yazıçı bir romana bütün dünya müharibələrini, münaqişələrini gətirə bilməz. Bu mümkünsüz. Amma bir yazıçı bir roman yazarsa və onu oxuyan hər kəs, millətindən asılı olmayaraq, müharibənin acımasız və qəddar sifətini görərsə, yazıçı məqsədinə nail olub. Söhbət budur.

**-Müharibə istənilən halda insan faciəsidir...**

-Təbii, müharibə hər kəsin ağrısıdır. Qarşı tərəfin də. Amma bu müharibəni biz başlamamışıq...

**-Sizi anlayıram. Aslan müəllim, roman çap olunandan sonra oxuyub "kaş bunu belə yazmayaydım, ya da kaş bunu da əlavə edəydim" dediyiniz oldumu?**

-İnanmayacaqsınız, çap olunandan sonra onu oxumadım ki. Çapa qədər azından on dəfə oxumuşdum, rəy üçün verdiyim dostlardan qayıdanda, tarixçilərdən qayıdanda. Düzəlişlər aparanda. Romanı yazmaqdan yox, oxumaqdan yorulmuşdum. Çünki roman yazılıb çapa verilənə qədər yazıçı o qədər üzərində işləyir, o qədər oxuyur ki, çap olunana qədər bütün gücü tükənir. Sanki son gücünü toplayıb son nöqtəni qoyur və bir daha keçdiyi bu ağır, çətin yola qayıtmaq istəmir.

**-Oxuculardan, dostlarınızdan hansısa bir qeyd gəlmədimi ki, açıb bir də baxasınız ki, nəyi deyirlər, niyə deyirlər? Yəni ciddi iradlar olmadımı? Üstəlik, bir də yad baxışdan oxumaq var.**

-Zəng eləyənlər, məktub yazanlar hamısı xoş sözlər yazdılar, xoş sözlər dedilər. Heç bir irad bildirmədilər. Doğrudur, bir oxucum qeydləri olduğunu və onları da yazacağını dedi, amma yazmadı. Tənqid isə romanda bircə dənə də işıqlı yer görmədi.

**-Bildiyimə görə, bu yaxında romanın AYB-də müzakirəsi olub...**

-Nərgiz Cabbarlının təşəbbüsü ilə AYB-də romanın müzakirəsi olub. Mən onda ölkədə deyildim. Müzakirənin xülasəsi "Ustad" jurnalında çap olunub. Normal müzakirə keçib, tənqidçilər də, həmkarlarım da son dərəcə səmimi olublar.

**-Yəni razı qalmısınız.**

-Əlbəttə.

**-Romanda yeknəsəq səhnələr var, meşə səhnələri, ov səhnələri, yemək-içmək səhnələri... Davamlı qaban ovlanır, qonaqlıq təşkil olunur, kabab çəkilir...**

-Hə, var. Ucqar, unudulmuş kənd. onlar başqa nə iş görə bilərdilər?

**-Çox da iştahlı səhnələrdir…**

-Hə. Bunu mənə çox deyirlər.

**-Aslan müəllim, "Ağrı" romanı yaratdığınız digər mətnlərin arasında hansı yerdədir?**

-Elə öz yerində. Mənim üçün yazılarım hamısı eynidir, aralarında məxsusən fərq qoya bilmirəm.

**-"Bəxti gətirən" mətniniz hansı olub indiyəcən?**

-Heç biri desəm, yəqin yanılmaram. Amma ən çox "Keçmiş döyüşçü və oğlan", "Rusiyadan gələn qardaş" haqda danışıb, yazıblar.

**-Yazıçıdan, sizdən yəni, soruşmaq istəyirəm, "Ağrı"dakı hər kəs, neylədiyini bilirdimi?**

-Təbii ki, hər kəs neylədiyini bilirdi. Amma bu bildikləri onların işinə nə dərəcədə yarayırdı, bu başqa söhbətdir…

**-"Tanrım, onları bağışlama, keşiş pıçıltıyla dedi, çünki onlar neylədiklərini bilirlər"...**

-Bu son keşişin son sözləriydi…

**-Bəli... Tez-tez bu kəlmələri pıçıldayıram. Lakin onları yazmağı sona saxladım...**